# “Məhdud çərçivələr içində parlaq gözəllik"

Hamlet İsaxanlı həm elmdə, həm ədəbiyyatda, həm də idarəetmədə təkbaşma bu missiyanı sərgiləyir

Onu sadəcə, "Xəzər Universitetinin rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet Isaxanh" kimi təqdim edib suallara cavab almaq növbəti, daha BİR MÜSAHİBLƏ SÖHBƏT ovqatı bağışlayardı. Həqiqətdə isə, Hamlet Isaxanlı gördüyü işlərin üstündə ucalan, ƏMƏLtYLƏ SÖZÜ düz mütənasib olan, TƏZADLAR İÇİNDƏ öz ədalət simmetriyasmı itirməyən, səmimiliyini hamıyla söhbətdə vətəndaş və insan kimi saxlamağı bacaran bir iç adamıdır!

Tələbəylə də, müəllimlə də, dövlət adamıyla da eyni tonda - insanlıq ranqmda və rütbəsində davranan bir ziyah, ÖZÜNDƏN ASILI OLAN hər bir ölçünü, əndazəni NÜMUNƏ SƏVİYYƏSİNDƏ sərgiləyən elm və idarəetmə təmsilçisidir. Şəxsiyyətinin çalarlarına uyğun olaraq, Hamlet tsaxanlı ilk əvvəl dinləyir, sonra riyaziyyatçı kimi məsələnin həllini tapır, şair kimi həssaslıq nümayiş etdirir!

Gördüyü işin, nıəşğul olduğu geniş sahələrin verdiyi imkanlarından yararlanaraq - , hay-küy qaldırmaq "məharət və bacarığına" yad olan, sünilikdən çox uzaqda dayanan Hamlet İsaxanlı ELMİN, ZIYALILIĞIN VƏ RƏHBƏRLİYİN VƏHDƏT DÜSTURUNU gətirir zamanımıza!

Bu dünyaya gətirdiyi DUYĞUSAL NƏSNƏLƏRIə bərabər, əməli töhfələri də var: XƏZƏR UNİVERSİTETİ təkcə ali təhsil ocağı deyil, həm də və eyni zamanda AZƏRBAYCAN ELMİNİN VƏ AZƏRBAYCANÇILIĞIN DÜNYA İLƏ DÖŞLƏŞƏN, ÖCƏŞƏN BİR İDDİASIDIR!

Müsahibə boyu bunun bir daha şahidi olacaqsınız.

**-Hamlet müəllim, Xəzər Universiteti hansı zərurətdən yarandı?**

- Universitetimizin yaranma ideyası bir arzudan doğub - övladlarımız Avropaya, Amerikaya getmədən də həmin səviyyədə ölkəmizdə təhsil ala bilsinlər, yaxşı mənada Avropanı, Amerikans bura gətirə bilək. Bunu əldə etmək üçün müəyyən mənada həm özümüzün ənənəmizdən, mədəniyyət tariximizdən gələnləri, həm də dünyadakı müasir qabaqcıl təhsil və idarəetmə formalarını tətbiq etmişik. Təhsilin

ingiils dilində olması bu dilə sevgidən deyil. Tələbələr bu dildə dünyanın hər yerində çap olunmuş yaxşı, sanballı kitabları oxuyur, xaricdən gəlmiş müəllimlərə qulaq asa bilir və onları xaricə göndərəndə orada təhsillərini davam etdirə bilirlər. İş tapa bilmək imkanları xeyli çoxalır. Bu fikirlər universitetin yaranmasının əsas səbəbi olub. Biz çalışmışıq ki, təhsilimizdə olan böhranın aradan qalxmasına yardımçı olaq. Hal-hazırda da təhsilimiz bu böhrandan tamam azad olmayıb; bu, təhsilin ciddi əsaslara dayanmaması və mənəvi aşınmadan, tapşırıq, rüşvət sisteminin yayğın olmasından irəli gəlir. Elə bir universitet qurulmasına çalışmışıq ki, bu xoşagəlməz və təhlükəli meyllərdən tam azad olsun. Çünki təhsildə bərabərsizlik və haqsızlıq törədən bu cür məqamlar varsa, keyfiyyətdən söhbət gedə bilməz, potensial gücdən tam istifadə olunmaz və mütəxəssis də zəif yetişər. İstəklərimizdən biri də burada beynəlxalq mühitin formalaşdırılmasıdır, yəni dünyanın hər yerindən tələbələr gəlib burda da oxuya bilsinlər. Tələbələr və müəllimlər gəlsinlər. Bu halda, özun dünyanı gəzirmişsən kimi hər xalqın mədəniyyəti ilə tanış olursan. Onda insan daha xoşqılıqlı olur, hadisələrə daha yaxın münasibət bəsləyir, ifrat fikirlərdən uzaq olur. Bütün bunlarla yanaşı, Xəzər Universitetini Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin xüsusi, cazibədar ocağı kimi görməyə çalışmışıq. Burada Azərbaycan mədəniyyəti başqa ali məktəblərdən fərqli, yüksək statusa malikdir, yəni bütün fakültə və ixtisaslaşmaların tədris programına daxildir, mədəniyyətin çox mühüm sahələri geniş və mümkün qədər səviyyəli şəkildə tədris və təbliğ olunur. Yəni tələbələr dərs götürürlər - o məcburidir, amma seçə bilərsən. Kimi muğam öyrənir - muğam dərsini Arif Babayev deyir; kimi xalçaçılıq və ya Azərbaycan klassik musiqisi, rəsm, rəqs, vokal və xor, milli ornamentlər və tikiş, moda, zərgərlik...öyrənir. Bir sözlə, burda Azərbaycan mədəniyyəti geniş mənada - həm təsviri və tətbiqi sənətlər, həm musiqi sevilir.

**-Rüşvət məsələsinə toxundunuz, onun aradan qaldırılmasına nə dərəcədə nail olmusunuz?**

- Rüşvəti aradan qaldırmağın bircə yolu var: adam mütləq istəməlidir ki, rüşvət qəti sürətdə olmasın, heç olmasın. Rüşvət yolxucu xəstəlikdir, varsa, virus düşübsə, o, yayılacaq. Başlanğıcdan mən Xəzər universitetinə, çalışırdım ki, o elm adamlarının dəvət edim ki, onların nüfuzu, keçmişi, bu günü açıq-aydın göstərsin ki, onlar əsl elm adamı, dərin ziyalılardır, rüşvətə yad insanlardır, ikiüzlülükdən, saxtakarlıqdan zəhlələri gedir. Ümumiyyətlə, insanlar, təbiətən, pis iş görmək istəmirlər, pis iş

görməyə məcbur olurlar. Görürsən ki, ətrafda bir dəstə adam pis iş görür və heç kim onları qınamır, sən də qoşulursan onlara - üstəlik də qazancı var. Amma mühit əsasdır. Mühiti elə qurduq ki, insanın ehtiyacı olmasın və qəti surətdə o barədə düşünməsin; ikincisi, onların maddi təminatı daha yaxşı olmalıdır. Maddi şəraitlə bərabər, ınənəvi mühit də onlara maraqlı olsun, imkan daxilində onlar səfərlər edə bilsinlər, xaricə gedib gəlsinlər, görsünlər - bax, biz bunu yaratmağa çalışdıq. Əlbəttə ki, qanun olmasa, bütün bunlar xülyaya çevrilərdi, söz olaraq qalardı. Ciddi şəkildə əvvəlcədən dönə-dönə söylədik ki, hər hansı bir tələbəni tapşıran, tələbənin qiymətini dəyişən müəllim universiteti tərk edəcək. Buna tam əməl etdik. Biz müəllimlərin xeyli hissəsini kənardan, digər elm-təhsil ocaqlarından dəvət etməli oluruq. Baxırıq ki, elmi kitabları var, normal alimdir, dəvət edirik. Ancaq görürsən, tələbədən xəbər gəlir - müəllim bizə işarə verdi ki, sizə imtahanda kömək edə bilərəm. Bu xəbəri eşidən kimi, doğruluğunu bilən anda bu cür müəllimlə vidalaşırıq. Tələbənin də, müəllimin də aşa bilməyəcəyi, güzəştə gedilməyən müqəddəs bir prinsip var - təmizlik və zəhmətin, qabiliyyətin düzgün qiymətləndirilməsi. Bu prinsipi pozan adam istər rektor olsun, prorektor və ya dekan olsun, kim olursa-olsun, o buradan gedəcək. Mən açıq elan etdim ki, bu bizim həyati vacib, varlığımızı şərtləndirən prinsipdir. Əgər mən bir gün görsəm ki, bunu bacarmıram, yəni bütün bu səylərə baxmayaraq, tapşırıq sistemi var, onda buranı bağlayacağam - bunu da həmkarlarıma əvvəlcədən elan etmişəm. Əlbəttə, hələ müəllimə və tələbəyə tam gözəl şərait yarada bilməmişik. Bu da aydındır ki, kamilliyin sonu yoxdur, kamillik əlçatmazdır, bizim can atdığımız cazibəli üfüqdür, cata bilmirik, amma ona doğru gedirik. Hər halda qəti surətde tapşırıq-rüşvət sistemi burda yuva sala bilməz.

Pozuntu bircə faiz olsa, o, yavaş-yavaş yüz faizə keçəcək. Əgər rektor bircə dəfə bir adamı tapşırsa, onda hamı tapşırmağa başlayacaq və mühit korlanacaq. Mən bunu qorumaqla məşğulam. Birinci adam əsasdır, "balıq başından iylənər" deyiblər.

**-Hansı xarici ölkələrdə Xəzər universitetinin filialiarı fəaliyyət göstərir?**

- Xarici ökələrlə bizim xeyli, güman edirəm ki, çox geniş əlaqələrimiz var, yəni universitetin bir ideyası da beynəlxalq əməkdaşlıq, təlim-təhsil-elm-sənət mərkəzinə çevrilmək olub. Çünki xariclə əlaqə olmayanda universitet əyalət ali məktəbinə çevrilir, ucqar əyalət müəssisəsi olur. Amma normal ali məktəb dünya

ilə yarışmalıdır. Burada hazırlanan mütəxəssis sabah lazim gəlsə, gedib Avstraliyada, Amerika, Avropa, ya Çində işləməyi bacarmalıdır. Dünya çox böyükdür və bu böyüklük imkanların böyüklüyü deməkdir. Bunu dərk edirik ki, əlaqələrimizi çox geniş qurmağa çalışmışıq. Həm tələbə, həm də müəllim mübadiləsi edirik. Çox geniş filialiar açmaq fikrimiz yoxdur. Çünki filial çətin bir işdir. Məsələn, Gəncədən uzun müddət bizə dedilər, gəlin bir filial açın. Gəncədə hazırlıq kursları açdıq. İki aydan sonra bizə xəbər gəldi ki, müəllimlər, deyəsən, tələbələrdən rüşvət almaq niyyətindədirlər. Burdan bir komissiya göndərdik, valideyn və tələbələrlə görüşdü, vəziyyəti araşdırıb geri döndü, nəticədə iki-üç aydan sonra kursu bağladıq (bu çoxdan olub, təqribən on il əvvəl). Amma Hindistanda iki yerdə və Tehranda kiçik filıallarımız var. Nigeriyada kiçik şöbəmiz mövcuddur, amma, dediyim kimi, biz onlara çox böyük səlahiyyətlər vermirik.

Universitetimizdə İrandan həddindən artıq çox oxumaq istəyənlər var. Onların bir hissəsi doktoranturada, maqistraturada oxuyur, iş adamıdırlar, işləyirlər, daimi bura gələ bilmirlər. Ona görə onların sənədləri yığılır, lazım gələndə biz ora müəllim göndəririk, onlarla söhbət edilir, onlara məsləhətlər verilir, imtahanlar isə yalnız Bakıda götürülür. Tehrandakı filialımızda otuz-qırx tələbə oxuyur. Ümumiyyətlə, biz tələbələrin sayını çoxaltmağa çalışmırıq, bəzən keytiyyət sayla tərs mütənasib olur.

- **Azərbaycanda və xaricdə hansı universitetlərlə əməkdaşlıq edirsiniz?**

- Universitetlərin adını saya bilmərəm. Əslində, hardasa 80-90 universitetlə çox geniş əlaqələrimiz, xüsusi müqavilələrimiz var. Yerlərini, coğrafiyasını deyə bilərəm. Xeyli hissəsi ABŞ-dadır: Harvard, Core Meyson, Purdue, Los-Anceles, Kaliforniya Universiteti, Vaşinqronda Amerika universiteti, müxtəlif ştatlardakı bir sıra dövlət universitetləri və s. və s. Amerikada 3 qrup universitet var: özəl, ictimai, dövlət. Hər üç növ yaxşı ali məktəblər ilə və Kanada universitetləri ilə də əməkdaşlığımız var. Avropada isə İngiltərə, Norveç, İsveç, Hollandiya, İtaliya, Belçika, Portəgiz, Yunanıstan, Fransa və digər ölkələrin universitetləri ilə six əlaqələr qurmuşuq.

Erazmus deyilən, Avropa üçün geniş yayılmış, bizim üçün yeni bir əməkdaşlıq çərçivəsi mövcuddur. Bugünlərdə Avropanın 7 yeni universiteti ilə tələbə və muəllim mübadiləsinə başladıq. Bununta bağlı Yunanıstanda oldum. İndi de

Brüsselə gedəcəyəm. Orta əsrlərin görkəmli humanisti Rotterdamlı Erazmusun şərəfinə adlandırılan bu proqramda bakalavr, magistr və doktor pilləsində təhsil alan tələbə heç bir ödəniş etmədən, xərc çəkmədən gedib bir il, il yarım və ya iki il Avropanın bu seçilmiş 7 universitetində oxuya bilər. Biz bu barədə artıq elan vermişik, tələbələrimizi göndərəcəyik. Sonra Uzaq Şərqdə Yaponiya, Cənubi Koreya, Malayziya, eləcə də Hindistan və yaxın şərq (Türkiyə, İrän, ərəb ölkələri) və Afrika, eləcə də, keçmiş sovet ölkələrindəki ali təhsil ocaqları ilə də geniş əlaqələrimiz var. Digər tərəfdən isə dünyanın çox müxtəlif ölkələrindən Xəzər universitetində təhsil almaq arzusunda olanlar gəlir, universitetimiz doğrudan da beynəlxalq təhsil-təlim-dostluq mərkəzi kimi məşhurlaşır. Hal-hazırda tələbələrimizin 17-18%-i xaricilərdir.

- **Təhsil haqqında Qanunda hansı dəyişikliyin (yeniliyin) olmasını istərdiniz?**

Bu uzun məsələdir, xususi söhbət mövzusu ola bilər. Qanun da qəbul olunmur ki, olumur. Səbəb də budur ki, orada prinsipial maddələrin çoxusu ilə razılaşmayanlar var, onlardan isə yan keçmək olmur. Biz təhsil qanununa çoxlu dəyişikliklər təklif etmişik. Mən 1992-ci ildə ilk təhsil qanununun müəlliflərindən olmuşam və o gündən bu günə kimi təhsil konsepsiyası, təhsil qanunu, təhsilimizin müasirləşməsi barədə düşünməkdəyəm. İki gündür Dünya Bankı ilə konfrans keçiririk. Hökümət adamları, Prezident Aparatı, Nazirlər Kabineti, ali məktəb rəhbərləri, məsul təhsil işçiləri, yerli və xarici mütəxəssislərlə birlikdə. Qanunda hansı dəyişikliklər etmək lazımdır? Bizim təkliflərimizdən biri odur ki, ali məktəblər yox, tələbələr maliyyələşdirilsin. Çünki ali məktəblərə, - yaxşıdır, güclüdür ya zəifdir - fərq qoymadan dövlət pul ayırır, ali məktəb də qayğılanmadan, ehtiyatlanmadan, sabahını düşünmədən öz işini (o cümlədən öz zəifliyini) davam etdirir. Rəqabət isə yoxdur. Biz deyirik ki, qəbul imtahanında yaxşı nəticə göstərən tələbələrin təhsil haqqı onlara verilsin və onlar hansı ali məktəbi istəyirlərsə oranı seçsinlər. Onda tələbə ürəyi istəyən ali məktəbə gedəcək. Bu halda ali məktəblər arasında ciddi rəqabət yaranacaq, yəni təhsil ocaqlarımız inkişaf edəcək.

İkincisi, ali məktəblərə müəyyən müstəqilliyin verilməsidir. Əgər ali məktəblərə müstəqillik verilərsə, şəffaflıq, məsuliyyət olar. Ən azı yaxşı universitetləri bu yolla mükafatlandırmaq, həvəsləndirmək lazımdır ki, başqaları da yaxşı olmağa çalışsınlar. Üçüncüsü, ali məktəblərin keyfiyyətini ölçən, onları yoxlayan ciddi

akkreditasiya komissiyası ideyasıdır. Biz istəyirik ki, həmin komissiya dövlətin nəzdində olmasın, mümkünsə, beynəlxalq xarakter daşısın və müstəqil olsun. Bu da öz növbəsində ali məktəbləri qiymətləndirmənin ciddi və obyektiv olmasını təmin edər və bu yolla yenə keyfiyyətin artmasına xidmət etmiş olardı.

Qanunda ali məktəblərin maliyyələşdirilməsi, idarə edilməsi və xarici əməkdaşlıq məsələlərində bir sıra mühüm dəyişikliklərin olması barədə də təkliflərimizi vermişik və bu prinsipləri müdafiə etməyə çalışmışıq.

**- Yaradıcılığınızla bağlı bir neçə sualımızı cavablandırmağınızı xahiş edirik. İlk şeirlər kitabınıza niyə məhz "Təzadlar" adını seçdiniz?**

- Həyatda ən çox rastlaşdığımız cəhət təzadlardır. Anadan olandan gozümüzü qapayana qədər görürük ki, yaxşı var, pis var; işıq var, qaranlıq var; həyat var, ölüm var - təzadlarla doludur bu həyat. Hər insan, hər düşünən fərd bunu hiss edir. Bunu yəqin mən də hiss etmişəm və deyəsən bu hisslər şeirlərimdə öz əksini tapıb. Mən nikbin adamam, yoxsa yaşamağın mənası olmaz. Amma nikbin ola-ola görürsən ki, hardasa bir ədalətsizlik var və onun bir hissəsi sənin başında çatlayır, bir hissəsi qonşunun başında, bir hissəsi xalqın başında. Onları yazanda görürsən ki, yazdığın şeir ya məqalə də həmin işığı, qaranlığı görür, canına hopdurur. "Təzadlar" sözü də ordan əmələ gəlir, amma belə ad ağlıma gəlmirdi, yəni adam şeir yazanda, kitab yazanda ad üzərində fikirləşmir, bu, ən sonda olur. Kitabıma adı mən qoymamışdım, bu adı kitabın redaktoru, görkəmli filosofumuz Camal Mustafayev təklif etdi. Kitabın çap olunmasının da başlıca səbəbkarı yenə Camal müəllim və bəzi dostlarım, o cümlədən evdəkilərdir. Bunu mən istəmirdim, həm ehtiyat edirdim ki, "bu riyaziyyatçı alimə nə oldu birdən-birə şeir kitabı çap etdirdi" deyəcəklər, həm də necə qarşılanacağını bilmirdim. Lakin kitabdan əvvəl artıq televiziyada bəzi şerlərimi səsləndirmişdilər, bəzi şeirlərimə musiqi də bəstələnmişdi. Əslində elə bunlar da çapa təkan verdilər. Camal müəllim şeirləri həyat yoldaşım Nailə xanımdan aldı, ona giriş sözü yazdı. Sonra digər şeirlər və kitablar çap olundu, o cümlədən Türkiyədə, İranda, Rusiyada, Çində, Gürcüstanda...

Mən uşaqlıqdan şeir yazardım, kitablardakı şeirlərin mühüm hissəsi əvvələr yazılmışdı, bəziləri olduğu kimi çapa getdi, bəziləri yarımçıq qalmışdı...

**- Həyat sizi çoxmu imtahana çəkmişdir?**

- Dünyada həyatın imtahana çəkmədiyi adam yoxdur. Həyatın döngələri var, eniş-yoxuşu olur. Bir də görürsən ki, onları rahat keçə bilmirik. Özümüzdən asılı olmayan çox şeylər var; göylərdən, ətrafımızdakı mühitdən gələn. Amma biz imtahandan çıxmağa -sağ qalmağa çalışırıq, düzgün yaşamağa, xoşbəxtliyə can atırıq. Əlbəttə, qarşına çıxan əngəlləri aşmaq yolları da var. Ancaq əsl ziyalı odur ki, məqsədə çatmaq üçün bütün vasitələrdən, hər yoldan istifadə etmir. Siyasətçi məqsədə çatmaq üçün, hakimiyyətə çatmaq üçün bütün yollardan istifadə edir. Əsl ziyalı isə qarşısına nəcib məqsəd qoyur və ona nəcib yollarla gedir. Nəcib yollara daş, kəsək atanlar çox olsa da, sən bu yolu keçməlisən. Keçəndə ayağın daşa ilişəcək, keçməyəndə də imtahan verə bilmirsən. Bəzən elə məqamlar da olur ki, imtahan vermədiytmiz üçün özümüzü xoşbəxt hesab edirik. Tarixdən məlumdur ki, xilas yolunu tapmaq asan deyil, bəzi görkəmli şəxsiyyətlər xiias yolunu intiharda görüblər. Məsələn, Mayakovski intihar etdi. Nəyə görə? Görünür, nəcib məqsədə gedən yolda nəsə səhv edib, nə isə onu sarsıdıb, bəlkə hətta vicdan əzabı da çəkib və nəticədə özünə qəsd edib. Ona görə nələri düzgün əldə etmək mümkünsə, onu əldə etməyə çalışmq; nəyi özümüzə yaraşdırmı-rıqsa, o tərəfə baxmınq və onu əldə etmək istəmirik.

- **Mümkünsə, uşaqlıq illərinin xatirələrini bizimlə birgə yada salaq...**

(Davamtı var)

Xanoğlan Əhmədov

Zöhrə Əliyeva